Türkoloji qurultay və müasir çağırışlar: əlifba, terminologiya, dil siyasəti məsələləri

Rüfət Rüstəmov,
Bakı Dövlət Universitesi,
Türk filologiyası kafedrası
Filologiya elmləri doktoru, professor
rufatrustamov45@mail.ru
+994552143706

Xülasə

1926-cı ildə Bakıda keçirilmiş Türkoloji Qurultay türk xalqları arasında elmi, mədəni və dil sahəsində inteqrasiyanın sistemli şəkildə qurulmasına yönəlmiş ilk beynəlxalq təşəbbüslərdən biri kimi qiymətləndirilir. Qurultayda ortaq əlifbanın yaradılması, terminoloji vahidliyin təmin olunması, təhsil sistemlərinin yaxınlaşdırılması və türkologiyanın müstəqil elmi sahə kimi inkişafı əsas prioritetlər sırasında yer almışdır. Bu baxımdan qurultay yalnız dövrünün elmi hadisəsi deyil, eyni zamanda türk dünyasında uzunmüddətli inteqrasiya ideyasının ideoloji və metodoloji əsaslarını formalaşdıran mühüm tarixi mərhələ olmuşdur.

Məqalədə Türkoloji Qurultayın irəli sürdüyü ideyaların müasir dövrdə, xüsusilə türkdilli ölkələr arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığın intensivləşdiyi bir şəraitdə yenidən aktuallaşması geniş şəkildə təhlil edilir. Ortaq əlifba təşəbbüsləri, dil siyasətlərinin koordinasiyası və təhsil sahəsində əməkdaşlıq çağdaş geosiyasi reallıqlar fonunda qiymətləndirilir. Bu proseslərin mədəni identikliyin qorunması və gücləndirilməsi baxımından əhəmiyyəti xüsusi vurğulanır.

Xülasədə göstərilir ki, Türkoloji Qurultayın ideyaları bu gün Türk Dövlətləri Təşkilatı çərçivəsində yeni məzmun qazanaraq regional inteqrasiyanın elmi və mədəni dayaqlarından birinə çevrilmişdir. Nəticə etibarilə, qurultayın irsi müasir türk dünyasında ortaq strateji düşüncənin və inteqrasiya modelinin formalaşmasına mühüm töhfə verməkdə davam edir.

Açar sözlər: türkoloji qurultay, ortaq əlifba, terminologiya, dil siyasəti, türk dünyası

The Turkological Congress and contemporary challenges: issues of alphabet, terminology and language policy

Summary

The Turkological Congress held in Baku in 1926 is regarded as one of the first international initiatives aimed at systematically establishing scientific, cultural, and linguistic integration among Turkic peoples. Key priorities of the Congress included the creation of a common alphabet, the standardization of terminology, the harmonization of educational systems, and the development of Turkology as an independent academic discipline. In this sense, the Congress was not merely a scholarly event of its time, but also a significant historical milestone that laid the ideological and methodological foundations for long-term integration within the Turkic world.

The article provides a comprehensive analysis of how the ideas advanced at the Turkological Congress have regained relevance in the contemporary period, particularly in a context marked by intensified political, economic, and cultural cooperation among Turkic-speaking countries. Initiatives related to a common alphabet, the coordination of language policies, and collaboration in education are examined against the backdrop of current geopolitical realities. Special emphasis is placed on the role of these processes in preserving and strengthening cultural identity.

The summary demonstrates that the ideas of the Turkological Congress have acquired renewed meaning within the framework of the Organization of Turkic States, becoming one of

the key scientific and cultural pillars of regional integration. Ultimately, the legacy of the Congress continues to make a significant contribution to the formation of shared strategic thinking and an integration model in the contemporary Turkic world.

Keywords: Turkological Congress, common alphabet, terminology, language policy, turkic world

1926-cı ildə Bakıda keçirilmiş Türkoloji Qurultay türkdilli xalqlar arasında dil, elm və mədəni inteqrasiya istiqamətində ilk sistemli təşəbbüs kimi tarixə düşmüşdür. Qurultayda müxtəlif türkdilli xalqları təmsil edən 131 alim və mütəxəssis iştirak etmiş, tədbirdə ortaq əlifba və terminologiya məsələləri, türk dillərinin təsnifatı, təhsil proqramları, elmi əməkdaşlıq və s. məsələlər müzakirə olunmuşdur.

Qurultaydan sonra baş verən siyasi dəyişikliklər – xüsusilə Sovet rejiminin mərkəzləşdirici siyasəti bu təşəbbüslərdən çoxunun qarşısını alsa da, ideyalar yaddaşlarda yaşamaqda davam etmişdir. XX əsrin sonlarına doğru bir çox türkdilli dövlətlərin müstəqillik qazanması ilə bu mənəvi miras yenidən aktuallaşmışdır.

Qurultayda dilçilik, ədəbiyyat, etnoqrafiya, tarix və digər sahələrlə yanaşı, əlifba məsələləri də xüsusi müzakirə obyektinə çevrilmişdir. Bu məsələ təkcə texniki yazı sistemi problemi deyil, həm də türk xalqlarının maarifçilik hərəkatı, savadsızlığın aradan qaldırılması və milli-mədəni inteqrasiyası baxımından strateji əhəmiyyət kəsb edirdi (İbrahimov, 2023).

I Türkoloji Qurultayda əlifba məsələsinə xüsusi diqqət yönəlməsi tarixi zərurətdən irəli gəlirdi. Məlumdur ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində türk xalqları arasında maarifçilik ideyalarının yayılması ilə əlifba islahatı məsələsi son dərəcə aktuallaşmışdı. Bu da onunla bağlı idi ki, ərəbcə yazı sistemi türk dillərinin fonetik xüsusiyyətlərinə uyğun olmadığından oxu və yazıda böyük çətinliklər törədirdi (Şahin, 2013). Bu səbəbdən başda böyük Azərbaycan mütəfəkkiri Mirzə Fətəli Axundov olmaqla türk ziyalıları daha sadə, fonetik prinsiplərə əsaslanan yazı sisteminə ehtiyac duyur, bununla bağlı çağırışlar səsləndirir, əməli təşəbbüslər irəli sürürdülər.

I Türkoloji Qurultayda isə əlifba məsələsi ətrafında iki əsas mövqe formalaşmışdı. Birinci mövqeyin tərəfdarları ərəb əlifbasının islah olunaraq saxlanması mövqeyindən çıxış edirdilər. Bu mövqe, əsasən, ənənəvi dini-mədəni irsin qorunması tərəfdarlarına aid idi. Onların fikrincə, ərəb qrafikasının dəyişdirilməsi milli kimlikdə parçalanmaya səbəb ola bilərdi. İkinci mövqedə duranlar isə ərəb əlifbasından tam imtinanı, latın qrafikasına keçidi zəruri sayırdılar. Bu mövqeyi dəstəkləyənlərin əksəriyyəti gənc ziyalılar və bir çox dilçilər idi. Onlar hesab edirdilər ki, latın əlifbası fonetik baxımdan türk dillərinə daha uyğundur, yazı və oxunu sadələşdirir, savadsızlığın azaldılmasına xidmət edir (İbrahimov, 2020).

Uzun müzakirələrdən sonra Qurultay iştirakçıları ikinci mövqeyi, yəni latın əlifbasının qəbulunu daha məqsədəuyğun hesab etdilər. Bu qərar "Yeni Türk Əlifbası Hərəkatı"nın əsasını qoydu, 1928-ci ildən etibarən Azərbaycan da daxil olmaqla, Sovet İttifaqında yaşayan bir çox türk xalqları latın qrafikasına keçid prosesinə başladı (Birinci Türkoloji qurultay, 2016).

Qurultayda qəbul edilən əlifba qərarı türk xalqlarının mədəni inteqrasiyasında dönüş nöqtəsi oldu. Bir tərəfdən, savadlılığın artırılmasına töhfə verdi, digər tərəfdən, müxtəlif türk respublikaları arasında ortaq elmi və mədəni əməkdaşlığı gücləndirdi. Əfsuslar olsun ki, 1939–1940-cı illərdə SSRİ rəhbərliyi latın əlifbasını ləğv edərək kiril qrafikasını tətbiq etdi ki, bu da həmin qərarın uzunmüddətli təsirlərini məhdudlaşdırdı.

Buna baxmayaraq I Türkoloji Qurultayda əlifba məsələsinin müzakirəsi türk xalqlarının yazı mədəniyyətində modernləşmə və inteqrasiya meyllərinin göstəricisi idi. Bu qərar milli-mədəni identikliklə modernlik arasında tarazlıq axtarışlarının nəticəsi olmaqla, türk dünyasının intellektual tarixində mühüm mərhələ kimi qaldı, ötən əsrin 90-cı illərinin əvvəllərində keçmiş SSRİ-dən ayrılaraq müstəqilliyini elan etmiş türkdilli respublikaların mədəni inkişafına əhəmiyyətli təsir göstərdi.

Yaxın tariximizə qısa ekskurs edərək yada salaq ki, Azərbaycan latın qrafikasına keçid qərarını 1991-ci ildə elan etmiş, 2001-ci ildə bu proses tam başa çatdırılmışdır. Türkiyədə isə Atatürk islahatları çərçivəsində 1928-ci ildə ərəb əlifbası ləğv edilərək yeni Türk latın əlifbası qəbul olunmuşdur. Özbəkistanda isə latın qrafikasına keçid qərarı 1993-cü ildə verilmiş, bununla belə uzun müddət kiril əlifbasından da paralel istifadə edilmişdir. Yalnız 2023-cü ildən etibarən hökumət tam keçid prosesini sürətləndirmiş, bu prosesin 2025-ci il ərzində başa çatdırılması planlaşdırılmışdır.

Türkmənistan 1993-cü ildə yeni latın əsaslı əlifbanı qəbul etmiş, bir neçə ildən sonra kiril qrafikasından istifadəni tam dayandırmışdır. Qazaxıstanda isə latın qrafikasına keçid qərarı 2017-ci ildə qəbul olunmuş, 2023-cü ildə əlifbanın yenilənmiş variantı təsdiqlənmiş, mərhələli keçid 2025-2031-ci illər arasındakı müddətə planlaşdırılmışdır. Bu məqamı xüsusi vurğulamaq istərdik ki, Qazaxıstanın yeni latın əlifbası modelində Türkiyə və Azərbaycan təcrübəsindən bəhrələnməsi əlifba sahəsində inteqrasiyaya doğru praktik addımları göstərir.

Müasir dövrdə türk dövlətləri əlifba məsələsini həm tarixi təcrübəyə əsaslanaraq, həm də elektron texnologiyalar və təhsil standartları kontekstində inkişaf etdirirlər. Türk dövlətlərində latın qrafikasına uyğunlaşma prosesi hər regionun tarixi və texnoloji imkanlarına görə fərqlənir, bəzi ölkələr elektron mətnlərdə latın qrafikasını məhdud istifadə edirlər.

Ümumən, Türk Dövlətləri Təşkilatının son illərdə gündəmə gətirdiyi ortaq əlifba təşəbbüsləri 1926-cı il ideyasının çağdaş davamı kimi dəyərləndirilə bilər. Müasir dövrdə texnologiya və beynəlxalq standartlar əlifbanın tətbiqini daha səmərəli edir, qurultay dövründə qoyulmuş prinsiplərin inkişafına xidmət göstərir.

Zamanın çağırışlarından irəli gələrək I Türkoloji Qurultayda terminologiya məsələləri də ən əhəmiyyətli istiqamətlərdən biri kimi xüsusi diqqətdə saxlanmışdı. Məlumdur ki, XX əsrin əvvəlləri türk xalqları üçün həm siyasi, həm mədəni baxımdan dönüş dövrü idi. Maarifçilik hərəkatının güclənməsi, savadsızlığa qarşı mübarizə, milli dillərdə elmi əsərlərin yazılması, təbii ki, terminologiya məsələlərini də aktuallaşdırır, terminlərin unifikasiyası mühüm önəm daşıyırdı. Çünki müxtəlif türk xalqlarında eyni anlayışın fərqli terminlərlə ifadə edilməsi elmi inteqrasiyanı çətinləşdirirdi.

Qurultayın keçirildiyi XX əsrin 20-ci illərində Sovet İttifaqında yaşayan türk xalqları müxtəlif terminoloji sistemlərdən istifadə edirdilər. Təhsil müəssisələrində və elmi nəşrlərdə "riyaziyyat – hesab – cəbr", "coğrafiya – yer bilgisi", "qanunşünaslıq – hüquq – şəriət elmi" kimi paralel terminlərin işlədilməsi vahid tədris sisteminin qurulmasına mane olurdu (Cəfərov., Hüseynova., Qəribli, 2025). Bu ziddiyyətlər yalnız elmi fəaliyyətə deyil, maarifləndirmə işinə də mənfi təsir göstərir, terminoloji qarışıqlıq savadsızlığın azaldılması prosesində əlavə çətinlik yaradırdı.

Qurultayda terminologiya məsələləri ətrafında aparılan geniş elmi diskussiyalar üç əsas istiqaməti ön plana çıxardı. Bu istiqamətlərdən biri ortaq terminoloji bazanın yaradılması ilə bağlı idi. Qurultay iştirakçıları vahid terminoloji komissiyanın yaradılmasını və elm sahələri üzrə terminlərin standartlaşdırılmasını zəruri sayırdılar.

Milli dillərin daxili imkanlarından istifadə müvafiq istiqamətlərdən ikincisini təşkil edirdi. Belə ki, türk dillərində terminlərin formalaşması zamanı milli köklərin əsas götürülməsi tövsiyə olunurdu. Hesab edilirdi ki, bu, bir tərəfdən elmin milliləşdirilməsi, digər tərəfdən də xalqların dil mədəniyyətinin zənginləşdirilməsi baxımından vacibdir.

Daha bir müzakirə istiqaməti isə sahələr üzrə uyğunlaşdırma məsələlərini əhatə edirdi. Qurultayda tibbi, hüquqi, pedaqoji, texniki və s. terminlərin uyğunlaşdırılması xüsusi müzakirə mövzusuna çevrilmişdi. Məsələn, "terapiya" ilə "müalicə", "jurisprudensiya" ilə "qanunşünaslıq" arasında seçimlərin ümumiləşdirilməsi zəruri sayılırdı (Cəfərov., Hüseynova., Qəribli, 2025).

Qurultayın qəbul etdiyi qərara əsasən, türk xalqları arasında vahid terminoloji sistem üzərində işləmək üçün xüsusi komissiyalar yaradılmalı idi. Həmin komissiyalar elm sahələri üzrə izahlı terminoloji lüğətlərin hazırlanmasını öz üzərinə götürəcəkdi. Bu qərara əsasən, 1920–

1930-cu illərdə müxtəlif türk respublikalarında terminologiya komissiyaları fəaliyyətə başladı, bir sıra terminoloji lüğətlər nəşr olundu. Lakin 1939–1940-cı illərdə SSRİ rəhbərliyinin kiril əlifbasına keçidi bu istiqamətdəki birgə işləri zəiflətdi.

Bununla belə, terminologiya ilə bağlı qərarlar türk xalqlarının elmi əməkdaşlığında mühüm rol oynadı. Bu, yalnız dil məsələsi deyildi, həm də elmin demokratikləşməsi, tədrisin sadələşdirilməsi və milli dillərin zənginləşdirilməsi prosesinin bir hissəsi idi. Qurultayda irəli sürülən prinsiplər sonrakı dövrdə Azərbaycan və digər respublikalarda elmi üslubun formalaşmasına mühüm təsir göstərdi.

I Türkoloji Qurultayda terminologiya məsələləri ilə bağlı aparılan müzakirələr, verilən qərarlar türk xalqlarının ortaq elmi düşüncə sisteminə inteqrasiyasının mühüm göstəricisi kimi milli dillərdə elmi üslubun inkişafına, savadsızlığın azaldılmasına, türk xalqları arasında elmi-mədəni əməkdaşlığın güclənməsinə əhəmiyyətli təkan verdi.

Ötən əsrin 20-ci illərində formalaşan yeni terminologiya təşəbbüsləri çərçivəsində müxtəlif elm sahələrinə aid terminlərin ümumtürk formasının yaradılmasına başlandı. Bu gün eyni ideyaların davamı kimi Türk Dil Qurumu, Azərbaycan Milli Elmlər Akademiyası, Qazaxıstanın, Özbəkistanın və digər türkdilli dövlətlərin dil sahəsində fəaliyyət göstərən müvafiq komissiyaları, TÜRKSOY-un aidiyyəti bölmələri arasında əməkdaşlıq genişlənməkdədir. Müxtəlif türk dillərində elmi və texniki terminlərin uyğunlaşdırılması üzrə ortaq lüğətlər hazırlanır. Onlayn terminoloji sistemlər və elmi portal vasitəsilə terminlərin bir-birinə uyğunluğu təmin olunur. Bu, elmi nəşrlərin və tədris materiallarının qarşılıqlı başa düşülməsini asanlaşdırır. Beynəlxalq konfranslar, seminarlar və layihələr türk dövlətlərinin terminologiya komissiyaları arasında məlumat mübadiləsi aparmağa imkan yaradır.

Müasir dövrdə türk dövlətləri arasında terminologiyanın standartlaşdırılması həm akademik, həm də praktik sahədə böyük əhəmiyyət daşıyır. Bu, xüsusilə təhsil, hüquq, tibb, texnika və texnologiya sahələrində qarşılıqlı anlaşmanı təmin edir.

I Türkoloji Qurultayda qaldırılan terminologiya məsələləri türk xalqlarının elmi əməkdaşlığında əsas prinsip kimi qalır. Tarixi və müasir yanaşmaların müqayisəsi göstərir ki, Qurultay prinsipləri bu gün də türk dövlətləri arasında elmi və tədris sahələrində inteqrasiyanın təməlini təşkil edir.

Təhsil sahəsində də Türk Dövlətləri Təşkilatının və Türk Akademiyasının koordinatorluğu ilə ortaq türk tarixi və ədəbiyyatı dərslikləri ilə bağlı müəyyən təşəbbüslər həyata keçirilir, onlar ortaq yaddaşın, mədəni kimliyin önə çıxmasında mühüm rol oynayır.

1926-cı ildə keçirilmiş I Türkoloji Qurultay türkdilli xalqlar arasında dilin sadəcə rabitə vasitəsi deyil, həm də mədəni və siyasi kimliyin daşıyıcısı kimi əhəmiyyətli rolunu diqqətə çatdırırdı. Bu gün isə dil siyasəti yalnız milli səviyyədə deyil, həm də regional inteqrasiyanın əsas vektorlarından biri kimi çıxış edir. Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən mədəniyyət layihələri ortaq dilin praktiki istifadəsini artırır, gələcək üçün strukturlaşdırılmış əməkdaşlıq perspektivləri yaradır.

Nəticə etibarilə, 1926-cı il Türkoloji Qurultayın türkdilli xalqlar arasında əsasını qoyduğu dil və mədəni birlik ideyası üzrə təşəbbüslər bir müddət ideoloji səbəblərlə dayandırılsa da, çağdaş dövrdə Türk Dövlətləri Təşkilatının platformasında yeni təkamül mərhələsinə qədəm qoyur. Bu təşəbbüslərin gündəmə gətirdiyi məsələlər, o cümlədən əlifba birliyi, terminoloji uyğunluq və ortaq təhsil məzmunu yalnız mədəni dəyər olmaqla məhdudlaşmayıb həm də geosiyasi və iqtisadi güclənmənin əsas şərtlərindən biri kimi çıxış edir. Bu baxımdan, 1926-cı il Türkoloji Qurultayı sadəcə tarixi fakt kimi deyil, eyni zamanda gələcəyə strateji baxış kimi yenidən qiymətləndirilməlidir.

ƏDƏBİYYAT:

1. Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər. Elmi sessiyanın materialları (10 iyun 2016-cı il). Bakı, “Elm və təhsil” nəşriyyatı, 2016

2. Buran A. Sovyet türkolojisi ve birinci Türkoloji Kurultayı, Turkish Studies International Periodical For The Languages, Literature And History Of Turkish Or Turkic Volume 4/3 Spring, 2009

3. Cəfərov N., Hüseynova M., Qəribli A.(18.08.2025.) Birinci Türkoloji Qurultayda terminologiya məsələsi// Ədəbiyyat qəzeti. https://edebiyyatqazeti.az/news/edebi-tenqid/13685-birinci-turkoloji-qurultayda-terminologiya-meselesi

4. Xürrəmqızı Afaq. Türkoloji qurultayda qeyri- türk xalqlarının iştirakı və əlifba məsələsi.// Birinci türkoloji qurultay: görünən və görünməyən tərəflər" elmi sessiyanın materialları. 2016, s. 15-21

5. İbrahimov E.Ə. (2020).Türk xalqlarının ortaq əlifba, imla və ünsiyyət dili. Bakı, "Mütərcim".

6. İbrahimov E.Ə.(2023) Türk dünyasında alfabe tartışmaları. Türkbilim araştırmaları dizisi.

7. Məmmədli N. I Bakı türkoloji qurultayın məruzələrində və XX əsrin əvvəllərində ərəb və fars mənşəli terminlərə münasibət. // I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Türkoloji emi- mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda Beynəlxalq konfransın materialları (I hissə), 2016, s. 164-167

8. Rüstəmov R. Ortaq türk dilinə gedən yol// I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Türkoloji emi- mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda Beynəlxalq konfransın materialları (I hissə), 2016, s. 167-169.

9. Sadıqova S. Türk dillərində ortaq terminologiya və ortaq ünsiyyət problemi //I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Türkoloji emi- mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda Beynəlxalq konfransın materialları (I hissə), 2016, s. 169-174

10. Şahin E. (2013) Türk dünyasında yazı birliği: Latin alfabesi temelinde yeni türk alfabeleri. Ankara, Yeni Türkiye, 2013